

SEVİNC YUNUSLU

## 60 YAŞIMIN ŞEİRİ

Perikib o İshaq-Musaq ümidim,
Durna dimdiyində didərgin düşüb.
Yandırdın ömrümü, günümü, getdin.
Dedilər bəxtinə guya gün düşüb.

Daha görünmərəm belə dərbədər,
Gedirəm ta sənə verib ömrümü.
Bir az da yaxşısan, mən görən gündən -
Cana da gəlmisən yeyib ömrümü.

Köksündə gül-çiçək cücərmir niyə,
Gözümün yaşını içən torpağın?
Bahar ümidlərim ovudammadı,
Üstündən payızlar keçən torpağı.

Hər gecə buludlar ağlayır məni.
Ömrümün payızı, qışı çəkilmir.
Elə böyütmüşəm gözümdə səni,
Günlərdi gözümün şişi çəkilmir.

Sönmüşdü ad günü şamımda sənlə,
Sən adda arzu da tutmuşdum hələ.
Nənəmin nağılı düz çıxmamışdı,
Yarımçıq yuxuya getmişdi nənəm.

İyirmi dörd ildi vaxtdan küsəli,
Sınmışdı əqrəblər sınayıb vaxtı.
Qırx ildi qalmışdım dayanacaqda,
Qırx ildi saatın dayanıb vaxtın.

* * *

Daha ümidlərin xəzan vaxtıdı,
Sovrular küləyə bütün ümidlər.
Gözümüz doymadan yox oldu getdi,
Mey dolu ümidlər, tütün ümidlər.

Yapışıb Allahın ətəklərinə,
Yalvardıq, yaxardıq, duyan olmadı.
Vallah məndən yaxşı göz yaşlarıyla
Yerləri, göyləri yuyan olmadı.

Sussam dinlərsənmi danışdığımı,
O səni qorxudan uçurum hanı?
Ay Allah, özümü atmaq istərəm
Hardadı dünyanın uçurumları?..

* * *

İslatma gözümü soyuqluğunla,
Gözlərim gözündə quruyan adam.
Əllərim sığallar baxışlarını,
Gözünü gözümdən qoruyan adam..

Mənim ümidlərim döz daşındadı,
Qismətim, taleyim köz başındadı.
Öpdüyün yanaqlar göz yaşındadı?
Eşqindən, bəxtindən yarıyan adam.

Nə yola gəlirsən, nə yollar sənə,
Düşər ümidlərim dumana, çənə.
Mənim dərdim, qəmim nə verər sənə?..
Get öz dərdlərinə barı yan, adam...
Gözünü gözümdən qoruyan adam.

* * *

Sonuncu şamdı könlüm,
Əlinlə söndür, gedək..
Ta bundan anrı yol yox,
Bu yol da sondur, gedək...

Götürə bilmir daha
Çiynim fağır yükləri.
Daşımaq çox çətindi
Bədənsiz sümükləri.

Gözlərimin altına
Yığılıbdı göz yaşı,
Gəl hər gün bircə dəfə
Evinizə su daşı.

* * *

Üzü ayrılığa getdi bu yollar
Qara gözlərində itdi bu yollar..
Bitdi bu sevdalar, bitdi bu yollar..
Mənimsə gözlərim hələ yol çəkir.

Mənim ömür yolum zülümə yoldu,
Alışıb, önməyim külümə yoldu,
Bu sevda yolları ölümə yoldu,
Neyləyim məni də belə yol çəkir.

Bir sevda könlümü alıb apardı
Bir yanı bahardı, bir yanı qardı.
Mənim bir sevdalıq halımmı vardı?
Yolçu olanları, lələ, yol çəkir.

* * *

Gözümü sıxmaq istədim
Gözlərinin qarasına.
Əllərini sarıq eylə
Ürəyimin yarasına.

Küləyə ver səhraları,
Gözlərimə qum üfür.
Közərir ömür şamım,
Gözlərini yum, üfür.

Olanlar olmur keçir,
Neyləyək ki, olacağa?
Gecə yuxuna gələcəm
Məni möhkəm qucaqla.

* * *

Mənə dardı bu dünya,
Oda, ev, məni sevmə.
Mən adam ha deyiləm
Adam sev, məni sevmə.

Səni üşüdər, gedər,
Könlümün qarı, qışı.
Məni Allah sevmədi
Neylər bir yad qarğışı?

Ağrımaz ürəyimin,
Daşa dönüb çat yeri.
Ümidin mən olmayım,
Sən arzuna çat, yeri.

Sənin ömrün bahardı,
Sən sevərsən gül ətrin.
Bilməzsən yanmaq nədi,
Ya qoxlamaq kül ətrin.

Mənə dardı bu dünya
Oda, ev, məni sevmə.
Mən adam ha deyiləm
Adam sev, məni sevmə.

***

Yaxardı soyuqluğun,
İsidərdi küləyin.
Mən səni daş bilməzdim,
Heyif, heyif, ürəyim..

Sən gedəli o yollar
Yığılmır gözlərimdən.
Mən elə yıxılmışam,
Qan axır dizlərimdən.

Tükəndi ümidlərim
Mən də yıxıldım, çökdüm.
Son əlvida əvəzi
Son kəs gözündən öpdüm.

* * *

Bu tunel içində tək qoyma məni,
Görünən işığa varaq əl-ələ.
Ya ölək, ya qalaq, nə olur olsun,
Sonuncu nəfəsə vaxt qalıb hələ.

Mənim ürəyimdə azadlıq hissi,
Aşaq dalğaların ləpərlərini.
Gedək, düşünməyək hayana olsa,
Götür son pulunu, qəpiklərini.

Düşək ağcaqayın yarpaqları tək,
Torpağa dönməkçün gedək solmağa.
Dayanaq gövdəli ağaclar kimi,
Dayanaq quşlara yuva olmağa

* * *

Min yol var aramızda,
Aramızda min səhər.
Səni sevincin boğar,
Məni burda dərd, qəhər..

Adi görünər sənə,
Yağışın altda durmaq.
Quruyan nəzərlərin,
Baxışın altda durmaq.

Səni hər gün yadına,
Dönüb min yol salan var.
Qapında gözlər durur.
Pəncərəndə salamlar.

* * *

Mən həsrət adamı, mən qəm adamı,
Bir az da uzaq dur, oduma düşmə.
İzin ver unudum, unutduğuntək,
Mümkünsə bircə gün yadima düşmə.

Yadıma düşmə ki, bəlkə nə vaxtsa
Yaddaşım quruya, yadım quruya.
Hər səhər, hər axşam dilimdə yanan,
Gözümdə islanan adın quruya.

Gözümün içinə yaxşı-yaxşı bax..
Bax o həmin qızam, yadammı, mənəm.
Sənə qaçmağım var, sənə gəlməyim.
Dünyanın ən bədbəxt adamı, mənəm.

* * *

Üzü ayrılığa getdi bu yollar,
Qara gözlərində itdi bu yollar.
Bitdi bu sevdalar, bitdi bu yollar.
Mənimsə gözlərim hələ yol çəkir.

Mənim ömür yolum zülümə yoldu,
Alışıb, sönməyim külümə yoldu,
Bu sevda yolları ölümə yoldu,
Neyləyim məni də belə yol çəkir.

Bir sevda könlümü alıb apardı,
Bir yanı bahardı, bir yanı qardı.
Mənim bir sevdalıq halımmı vardı?
Yolçu olanları, lələ, yol çəkir.

